Ədəbiyyat qəzeti

7 fevral 2025-ci il 21 №5

# *Vəli QARAÇAYLI-60*



Hörmətli Vəli Qaraçaylı!

Sizin - müasir poeziyamızda çoxəsrlik xalq şeiri ənənələri üstündə köklənmiş, milli ruhu özündə yaşadan şeirlər və poemaların müəllifi olan şairin 60 yaşı tamam oldu.

Siz 1965-ci il fevralın 5-də qədim Borçalı mahalı Başkeçid rayonunun Yuxarı Qarabulaq kəndində anadan olmuş, ibtidai və orta təhsilinizi dünyaya göz açdığınız kənddə almısınız. 1983-85-ci illərdə əsgəri xidmətinizi başa vurduqdan sonra Bakıda 88 saylı peşə məktəbini bitirmisiniz. 2006-cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüsünüz. İctimai fəaliyyətiniz nəzərə alınaraq, 2022-ci ildən Sabunçu Rayon Ağsaqqallar Şurasının sədri seçilmiş, elə həmin il Respublika Prezidentinin ədəbiyyat nümayəndələri üçün nəzərdə tutduğu müddətli təqaüdə layiq görülmüsünüz.

Siz bədii yaradıcılığa səksəninci illərin ortalarında şair kimi başlamış, mətbuata ilk dəfə "Borçalıdan gələn səslər" başlıqlı şeirlərlə 1992-ci ildə çıxmısınız. "Yarı böləmməzlər ürəyimizi" adlı ilk şeirlər kitabınız 2005-ci ildə işıq üzü görüb. Bunun ardınca "105 il öncə", "Xankəndidən Turana", "Məmmədcəfərlilər" kimi poetik və publisist kitablarınız çapdan çıxıb. Doğma yurda bağlılıq, vətənə sevgi, saf məhəbbətin tərənnümü, halallığa çağırış xalq poeziyası üslubunda yazdığınız şeirlərin əsas ideya-bədii göstəriciləridir. Təsadüfi deyil ki, sözlərinizə bəstələnmiş mahnılar ümumrespublika önəmli tədbirlərdə səslənmiş, yaradıcılığınız bir sıra tanınmış ədəbiyyat və elm nümayəndələri tərəfindən yüksək qiymətləndirilmiş, haqqınızda Zəlimxan Yaqub, Camal Mustafayev, Mürsəl Həkimov, Sabir Ələsgərov, Abbas Abdulla, Səyavuş Sərxanlı, Vaqif Yusifli, Elxan Məmmədli, Knyaz Aslan, Əsəd Cahangir kimi ünlülər təqdiredici rəylər demiş, şeirləriniz rus, gürcü, türk, özbək və digər dillərə çevrilərək müvafiq ölkələrdə dərc olunmuşdur. Siz vətənpərvər şair olmaqla yanaşı, qayğıkeş ailə başçısı, dörd övlad atasısınız.

**Hörmətli Vəli Qaraçaylı, 60 illik yubileyinizi təbrik edir, sizə cansağlığı, gələcək yaradıcılığınız, ümumən, bundan sonrakı fəaliyyətinizdə də uğurlar arzulayırıq.**

**Azərbaycan Yazıçılar Birliyi**